**DOI:** 10.55543/insan.1296756 *Araştırma Makalesi/Research Article*

# Dünya İnsan Bilimleri Dergisi

World Journal of Human Sciences

ISSN: 2717-6665

Ocak 2024 Cilt/Volume: 2024 Sayı/Issue: 1

## Cənubi Azərbaycanda Qadın Məsələsi: “Azərbaycan” Qəzetinin (1947-1949) Materialları Əsasında

*The Issue of Women in South Azerbaijan: Based on the Materials of the “Azerbaijan” Newspaper (1947-1949)*

*Ali Farhadov**

**Özet**

Seyid Cafer Pişevari’nin 1945 yılında Tebriz`de yayınlattığı “Azerbaycan” gazetesinde XX. yüzyılın ilk yarısında İran ve Azerbaycan’da kadın konusu ana yerlerden birini işgal etmektedir. S.C. Pişevari liderliğindeki Azerbaycan Demokrat Partisi’nin (ADF) yayın organı olan gazete, 1945-1946 yıllarında Tebriz’de yayımlanmış, ADF’nin yenilgisi nedeniyle sonraki baskıları Bakü’de yayımlanmıştır. “Azerbaycan” gazetesi, Pehlevi Şah rejiminin halk karşıtı politikasını, özellikle de Azerbaycanlı kadınların hem ulusal baskıya hem de ayrımcılığa maruz kalmasını eleştirdi. Gazete, “Rıza Şah’ın verdiği özgürlüğün kadınlara herhangi bir ekonomik, sosyal veya siyasi hak vermediğini” belirtti. Gazetede Azerbaycan kadınlarına gerçek özgürlüğün Pehleviler tarafından değil, 1945-1946 yıllarında Azerbaycan Demokrat Partisi hükümeti tarafından verildiği gösterildi. ADF hükümetinin yenilgisine rağmen gazete umudunu kaybetmedi ve gerçek insan özgürlüğünün hâlâ kurulabileceğini gösterdi. Gazete ayrıca Azerbaycan kadınının acı kaderini anlatan şiirlere de yer vererek ona umut verdi. Pişevari mirasının ve “Azerbaycan” gazetesinin araştırılması, Pehlevi Şah rejiminin 20. yüzyılın ilk yarısındaki halk karşıtı politikasını, saraya karşı halk hareketini, ulusal kurtuluş hareketini ve

* **Sorumlu Yazar/Corresponding author:** Doç.Dr., Milli Azerbaycan Tarihi Müzesi, ali_farhadov@yahoo.com, ORCID ID: 0000-0002-9322-3670.

**Atıf/Citation:** Farhadov, A. (2024). Cənubi Azərbaycanda Qadın Məsələsi: “Azərbaycan” Qəzetinin (1947-1949) Materialları Əsasında. *Dünya İnsan Bilimleri Dergisi*. 2024 *(1)*, 48-56.

**Geliş/Received:** 13.05.2023 **Kabul/Accepted:** 07.01.2024

mücadelesini, İran ve Güney Azerbaycan'daki kadın meselesini incelemek açısından önemlidir ve kendi araştırmacılarını bekliyor.

**Anahtar Kelimeler:** "Azerbaycan" Gazetesi, S.C. Pişevari, ADF, Pehleviler, Kadın

**Abstract**

In the “Azerbaijan” newspaper founded by Sayyed Jafer Pishevari in Tabriz in 1945, the topic of women occupies one of the main places in Iran and Azerbaijan in the first half of the 20th century. The newspaper, an organ of the Azerbaijan Democratic Party (ADP) led by S.J. Pishevari, was published in Tabriz in 1945-1946, and its subsequent editions were published in Baku due to the defeat of the ADP. The “Azerbaijan” newspaper criticized the anti-people policy of the Pahlavi Shah regime, especially the fact that Azerbaijani women were subjected to both national oppression and discrimination. It was mentioned in the newspaper that “the freedom given by Reza Shah did not give women any economic, social or political rights.” In the newspaper, it was shown that real freedom was given to Azerbaijani women not by the Pahlavis, but by the government of the Azerbaijan Democratic Party in 1945-1946. Despite the defeat of the ADF government, the newspaper did not lose hope and showed that true human freedom would still be established. The newspaper also presents poems dedicated to the bitter fate of the Azerbaijani woman and gave her hope. Finally, we can say that the investigation of the Pishevari heritage and the “Azerbaijan” newspaper is important in terms of studying the anti-people policy of the Pahlavi Shah regime in the first half of the 20th century, the people's movement against the palace, the struggle for national liberation, and the women's issue in Iran and South Azerbaijan, and it awaits its own researchers.

**Keywords**: “Azerbaijan” newspaper, S.J. Pishevari, ADP, Pahlavis, Woman

## Giriş

S.C.Pişəvərinin rəhbərlik etdiyi Azərbaycan Demokrat Firqəsinin (ADF) orqanı olan qəzet 1945-1946-cı illərdə Təbrizdə, sonrakı nəşrləri isə ADF-nin məğlubiyyəti səbəbilə Bakıda çap edilmişdir. S.C.Pişəvərinin 1945-ci ildə Təbrizdə əsasını qoyduğu "Azərbaycan" qəzetində XX əsrin I yarısında İranda və Azərbaycanda qadın mövzusu əsas yerlərdən birini tutur.

"Azərbaycan" qəzetində Pəhləvi şah rejimi dövründə azərbaycanlı qadınların həm milli zülmə, həm də ayrı-seçkiliyə məruz qalması tənqid edilirdi. Hələ 1945-ci ildə çıxan nömrələrdə Baş prokuror F.İbrahiminin məqalələrində Əhəməni çarı Kirin başını kəsən skif çariçası Tomrisin qəhrəmanlığı Azərbaycan qadınlarına nümunə göstərilirdi (İbrahimi 2018, 44-46). Qəzetdə milli hökumət dövrünün qadınlara verdiyi hüquq və azadlıqlar təbliğ edilir və nümunə göstərilirdi. Həmçinin qəzetdə qadınların beynəlxalq vəziyyəti, 8 mart Beynəlxalq Qadınlar Günü və s. məsələlər barədə oxuculara məlumat verilirdi.

## 1. "Azərbaycan" Qəzetində Qadın Məsələsinə Baxış

"Azərbaycan" qəzetində qeyd edilirdi ki, Rza şahın 1936-cı il 8 yanvar tarixini (17 dey 1314) qadınlar bayramı günü elan etməsinin, onun qızı Şəms Pəhləvinin İran qadınlarının bayraçı münasibətilə təntənəli tədbirlər keçirməsinin və şahpərəst mətbuatın bunu təbliğ etməsinin qadınlara heç bir faydası olmayıb. Şahın qadınların çadrasını zorla açdırmasının da qadın azadlığına heç bir aidiyyəti yoxdur. Qəzet yazırdı ki, "Quldur Rza xan 1314-ci ilin dey ayının 17-də qadınları kəşfi-hicab etmək (hicabı açmaq-Ə.F.) üçün müxtəlif şəhərlərdə müəyyən yığıncaqlar tərtib edib və sonra bütün şəhərlərdə vəhşiyanə surətdə bütün qadınların kəşfi-hicab olunmalarına başladı. Rza xanın etdiyi bu süni təqlid xalq içərisində olduqca böyük narazılıqlara səbəb oldu. Bundan əlavə bu iş xalqın namusına təcavüz etmək, xalqı hədələyib rüşvət almaq, və bir çox qanunsuz hərəkətləri icra etmək içün dövlət məmurlarına, xüsusilə polis idarəsinə imkan və bəhanə verdi" (İran qadınları 1949, 1). Qəzetə görə "Rza xanın bu işi İran qadınlarına ictimai hüquq vermirdi. İran qadınları indi də ictimai hüquqdan məhrum edilib pis və dözülməz bir vəziyyətdə yaşayırlar" (İran qadınları 1949, 1). Həmçinin göstərilirdi ki,"Rza xanın verdiyi azadlıq, qadınları heç bir iqtisadi, ictimai və siyasi hüquqa malik etməmişdir. Bu azadlıq fəqət ajanların zoruyla küçələrdə arvadların çadrasını götürməkdən ibarət olmışdur" (18 Dey 1948, 4). Qəzetdə qadın azadlığından danışan saray məmurlarına, o cümlədən Məhəmmədrza şahın bacısı Əşrəf Pəhləviyə tövsiyə olunurdu ki, Tehranın zənginlər məhəlləsindən kənara çıxıb bölgələrdə bədbəxt İran qadınlarının faciəvi, yoxsul həyatı ilə tanış olsunlar (18 Dey 1948, 4).

Qadınlara onlara kişilərlə bərabər hüquqlar verilməməsini tənqid edən “Azərbaycan” qəzeti yazırdı ki, “Qadınların iqtisadi cəhətdən ərdən asılı olması onları müti qul qalmağa məcbur etmişdir. Hətta karxanə və fabriklərdə kişilərlə eyni iş və eyni vəzifədə çalışan qadının zəhmətinə kişidən az hüquq verilməsi kapitalizm dünyasında qadın azadlığını iddia edənlərin riyakarlığını sübut edən bir dəlildir” (8 Mart 1948, 1). Qəzet iqtisadi cəhətdən azad və təmin edilməyən qadınların son nəticədə ya pis yola düşdüyünü, ya da qul, kölə kimi ac və çıplaq yaşamaq məcburiyyətində qaldığını belə göstərirdi: “Qadınların zindəganlıq (həyat-Ə.F.) şəraiti düzgün olmadığına görə vəziyyətləri pozulur. Ehtiyacın çoxluğundan bəzən namuslu qadınlar təmini-məaş (məişəti təmin-Ə.F.) etməkdən ötrü na-rəva hərəkətlərə baş vurmaq məcburiyyətində qalırlar” (Darəndaşi 1948, 1). Həmçinin göstərilirdi ki, “öz varlığını itirmiş olan əhali qışın bu şaxtasında evsiz-eşiksiz qalıb və hər dəqiqə ölümlə hədələnir. Alınan xəbərlərə görə körpə uşaqlardan, qadınlardan bir çoxu soyuğun nəticəsində ölüb aradan getmişlər” (Dövlətin 1949, 1). Sosial-iqtisadi problemlərlə yanaşı Pəhləvi dövlət məmurları da yoxsul insanlara, xüsusilə qadınlara qarşı qanunsuz olaraq çox kobud rəftar edirdi. Qəzet baş verən bir hadisəni nümunə verərək yazırdı ki, “bir jandarm yoldan keçərkən yolun kənarında öz tütün zəmisində işləyən bir qoca qadını tutub, zorla zəmidən çıxarmış və Düxaniyyat (Tütün-Ə.F.) İdarəsindən icazəsiz tütün yığmağa başladığını bəhanə qərar verib tüfəng qundağıyla qadını o qədər vurmuşdu ki, qadın kəndə gələndən iki gün sonra ölmüşdü. Bu növ vəhşiyanə cinayətlərin sayı olduqca çoxdur” (Kürdüstan 1949, 4). “Azərbaycan” qəzeti göstərirdi ki, məmurların özbaşınalığına və ya ölkədəki ağır ictimai-siyasi, iqtisadi duruma etiraz edən qadınlar da kişilər kimi cəzalandırılır, hətta həbs və ya sürgün edilirdi.

Sosial-iqtisadi problemlərlə yanaşı səhiyyə məsələsi də Pəhləvilər dövrünün əsas problemlərindən biri idi. Xəstəxanaların yetərsizliyi, dərmanların qıtlığı və bahalılığı, bölgələrdə həkim azlığı və ya yoxluğu səbəbilə erkən ölümlər, doğuş vaxtı ana və körpələrin tələf və ya əlil olması İranda o dövrdə adi bir hal idi. “Azərbaycan” qəzeti yazırdı ki, İranda xəstəxanalar, profilaktik tədbir və təcili kömək müəssisələri olmadığına görə müalicə fərdi olaraq geniş xalq kütləsini əhatə edə bilmir. Nəticə etibarilə əhali qolu bağlı, ölüm əjdəhasının ağzına atılmış olur. Kəndlərdə, qəsəbələrdə əsla dərmanxana və yaxud həkimdən heç əsər yoxdur. Əgər bir kimsəyə cərrahlıq əməli və ya təxirə salınmaz müalicələr lazım olarsa, o, dört əl-ayağını uzadıb mürdəşiri gözləməlidir” (Əsgərzadə 1948, 1, 4). İldə yüz məzun buraxan Tehran Universitetinin Tibb fakültəsi əhalinin ehtiyaclarını qarşılaya bilmirdi (İranı 1949, 3). Hətta Tehranda da əhalinin səhiyyəyə olan ehtiyacının yalnız üçdə bir hissəsi təmin olunmuşdu və yoxsul təbəqə xəstəxanalarda yer azlığı səbəbilə müalicə oluna bilmirdi (Şəkibxan 1948, 1, 3). “Azərbaycan” qəzeti xəstəxanaların və həkimlərin ancaq varlı təbəqəyə xidmət etdiyini

göstərərək yazırdı ki, "Şəhərlərdə bir nəfər kargər və ya yoxsul xəstələndikdə xəstəxanalardan pulsuz olaraq istifadə etməyə haqlı olmadığından ölümə məhkumdur" (Fəhmi 1948. 4). Hökumət isə bu problemlərə laqeyd olub dövlət büdcəsini ancaq öz şəxsi əyləncəsi üçün xərcləyirdi. "Azərbaycan" qəzeti yazırdı ki, "bu büdcədən xalqın istifadəsi üçün heç bir şey verilməyib və həmin pulları müxtəlif yollarla Tehranın kafelərində xərcləyib xalqın bəhdaştı (sağlamlığı-Ə.F.) fikrində olmamışlar. Xüsusilə Azərbaycan səhiyyəsi üçün indiyə qədər heç bir müsbət iqdam olunmamışdır" (Oğruların 1948, 1).

Azərbaycanlılar isə bu dövrdə iki qat zülmə, həm şah əsarətinə, həm də fars şovinizminə məruz qalırdılar. Qəzet yazırdı ki, "polis xalqımızı indi də terror edib dəstə-dəstə öz yurdunu tərk etməyə məcbur edir və hakim farsları Azərbaycana gətirir. Bununla da daxili irtica Azərbaycanda farslaşma siyasəti aparır" (Azərbaycanda 1949, 4). Qəzetdə bu mənfur siyasətin Rza şahın qızları olan Şəms, Əşrəf və digər Pəhləvi ailəsinə mənsub şahzadələrin, məmurların daha da harınlanmasına xidmət etdiyi şeir vasitəsilə belə göstərilirdi:

"Azərbaycan talanır...
Tapıldı gəlir yolu,
Buradan çıxdı hələ Əşrəfin,
Şəmsin işrət pulu.
Belə icra olundu şahənşahın fərmanı:
Kişilər dar ağacına!
Qadınlar sürgünə!
Şeylər Tehrana getdi,
Yandırdılar daxmanı" (Azəroğlu 1948, 3).

## 2. "Azərbaycan" Qəzetində Qadın Hüquqları Uğrunda Mübarizəyə Çağırış

"Azərbaycan" qəzetində qadınların öz haqları uğrunda mübarizə aparmaları üçün təşkilatlanmaları gərəkdiyi bildirilir və yazılırdı ki, "Qadınların bu qədər ədalətsizlik və haqsızlığa məruz qalmalarının səbəbi onların hüququnu müdafiə edən bir təşkilatın yoxluğından irəli gəlir" (Darəndaşi 1948, 4). Pəhləvi hakimiyyəti xalqın gözünü boyamaq üçün bəzi qadın təşkilatları yaratsa da, qəzet göstərirdi ki, onlar "hay-küy salıb xalqı iğfal etməgə çalışırlar. Azadlıq hərəkatını kişilərdən səlb (ləğv-Ə.F.) etməyə çalışan hakim təbəqə heç vəqt qadınlara azadlıq qail olub (söz verib-Ə.F.) demokratik hərəkatın inkişafına razı olmayacaqdır" (Darəndaşı 1948, 4). Qəzetdə əslən Qacar nəslindən və Təbrizdən olan qadın haqları müdafiəçisi, İran Xalq Partiyasının Qadın Komitəsinin rəhbəri Məryəm Firuzun Budapeştdə yeni təşkil olunan Beynəlxalq Qadınlar Konqresindəki nitqi də təqdim edilmiş və göstərilmişdir

ki, Məryəm xanımın bu tədbirə gedə bilməməsi üçün hökumət süni əngəllər yaratmışdı (Taziyanə 1948, 1). Lakin Məryəm xanım bu tədbirə gedərək İran qadınlarının acınacaqlı vəziyyətini konqres iştirakçılarına çatdırmış və belə demişdir: “İranın irticaçı heyəti-hakiməsi İran xalqlarını satmışdır”. O, konqres iştirakçılarına müraciət edərək, onları öz dövlətlərinin İranda yürütdükləri siyasət əleyhinə etiraz etməyə dəvət etmişdir (Beynəlxalq Qadınlar 1948, 1). Qadınlara qarşı məhdudiyyətlər təkcə şah hökumətinin sərt tədbirlərilə məhdudlaşmır, mürtəce şəxslər “təhsil almaq məsələsini də qadınlara günah hesab edir”, hətta qəzet və radiolarda qadınların azadlığı əleyhinə məqalə, nitq və çıxışlar təşkil edirdilər. İrticaçı qüvvələr İran qadınlarını cəhalət içərisində saxlamağa çalışırdılar (8 Mart 1948, 1).

Azərbaycanlı qadınlara həqiqi azadlığın Pəhləvilər tərəfindən yox, məhz 1945-1946-cı illərdə Azərbaycan Demokrat Firqəsi hökuməti tərəfindən verildiyi belə göstərilir: “Azərbaycanda milli hökumət təşkil edildiyi vəqtlərdə Azərbaycan qadınları həqiqi azadlığa nail ola bilmişdilər. Milli hökumət İranda birinci dəfə olaraq, Azərbaycan qadınlarına seçki hüququ verib, onları geniş miqyasda istehsalata cəlb etməklə asılı olmaq əsarətindən xilas etmişdi” (8 Mart 1948, 1). Qəzetdə ilk dəfə olaraq İranda qadınlara kişilərlə bərabər hüququn məhz ADF hökuməti tərəfindən verildiyi bildirilirdi (Firqəmizin 1948, 4).

“Azərbaycan” qəzeti ADF hökumətinin məğlubiyyətinə baxmayaraq, ümidini itirmir, həqiqi insan azadlığının yenə də bərqərar olacağını belə göstərirdi: “Həqiqi qadın azadlığını quldur Rza xanın və onın imperialist nökərləri olan oğlu və ya İranın mürtəce məclis və dövləti yox, fəqət xalq hökuməti verə bilər ki, onun da vəqti uzaq deyildir” (18 Dey 1948, 4).

“Azərbaycan” qəzetində dünya qadınlarının öz hüquqları uğrunda mübarizə tarixi də oxuculara çatdırılırdı. Qəzetdə 1910-cu ildə Danimarkanın Kopenhagen şəhərində keçirilmiş Qadın Sosialist İnternasionalının qurultayı haqqında və 8 Mart Beynəlxalq Qadınlar Gününün təsis edilməsi barədə məlumat verilirdi və göstərilirdi ki, “sosialistlərin konqresində qadınların kişilərlə bərabər hüquqa malik olmaq məsələsi müzakirə edilib qərar çıxarıldı” (8 Mart 1948, 1). SSRİ-dəki qadın haqları nümunəsi də iranlı qadınlara nümunə göstərilir və belə deyilirdi: “Stalin qanuni-əsasisinin (konstitusiya-Ə.F.) böyük nemətlərindən biri də qadına kişi ilə bərabər haqq vermişdir” (Vilayi 1948, 3). Həmçinin göstərilirdi ki, “Sovet İttifaqı qadınları cəmiyyətin tam hüquqlu üzvü olub təsərrüfat, mədəniyyət və sənət sahələrinə yüz minlərcə calibi-diqqət (diqqəti cəlb edən-Ə.F.) şəxslər vermişdir” (8 Mart 1948, 1).

Qəzetdə Azərbaycan qadınının acı taleyinə həsr edilmiş şeirlər də təqdim edilir və ona belə ümid verilirdi:

“Düşünürəm taleyini əziz qadın, əziz qadın!
Bilməm nədən, sən ömründə bir az belə şad olmadın!

Böyük qadın! Taleyindən küsməginən sən bu qədər

Bil ki, yenə alnınızda gün doğacaq bir xoş səhər" (Gülgün 1947, 3).

"Azərbaycan" qəzeti Pəhləvi hakimiyyətinin xalqa bir qul kimi baxdığını və daima onu istismar etmək, əsarətdə saxlamaq istədiyini göstərir və onu yenidən mübarizələrə səsləyirdi (Dövlətin 1949, 1). Bu istiqamətdə qəzetdə Mədinə Gülgünün "Anama", "Sabahın müjdəsi", "O gün yaxınlaşır", "Mənimdir", Hökumə Billurinin "Mənim arzum", "Xatırlayıram o günləri" və s. şeirlərindən nümunələr də təqdim edilir, qadınlara haqq uğrunda mübarizə, ictimai-siyasi, milli maarifçilik yolu göstərilirdi.

## Sonuç

Son olaraq deyə bilərik ki, Pişəvəri irsinin, "Azərbaycan" qəzetinin tədqiqi təkcə dövrün milli azadlıq, insan haqları və demokratiya uğrunda azərbaycanlıların mübarizəsini yox, həm də İranda və Cənubi Azərbaycanda qadın problemini, bu istiqamətdə Azərbaycan qadınlarının ictimai-siyasi, sosial-iqtisadi, milli-mədəni sahələrdəki mübarizə tarixini öyrənmək baxımından da əhəmiyyətlidir. Həmçinin qəzetdə Mədinə Gülgün, Hökumə Billurə kimi qadın şairlərimizin yaradıcılığının təqdim edilməsi Cənubi Azərbaycan ədəbiyyatının öyrənilməsini təşviq edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünya azərbaycanlılarının hüquqlarının qorunması sahəsindəki nitq və çıxışları, apardığı siyasət gənc alimlər üçün nümunə olmalı, bu baxımdan elmi araşdırmalar, tədqiqatlar daha dərindən aparılmalı, millətimizin şah rejiminə, mürtəce və müstəbid xalq düşmənlərinə qarşı qarşı mübarizə və mücadilə tarixi öyrənilməli və təbliğ edilməlidir.

**Kaynakça**

18 Dey İran qadınlarının azadlıq bayramının həqiqi mənası. (1948). “Azərbaycan” qəz., № 13, 14 yanvar, s.4.

8 Mart dünya qadınlarının beynəlxalq bayramı. (1948). “Azərbaycan” qəz., № 29, 10 mart, s.1.

Azərbaycanda mürtəcelərin azğınlığı. (1949). “Azərbaycan” qəz., № 116, 8 yanvar, s.4.

Azəroğlu. (1948). Zindan. “Azərbaycan” qəz., № 68, 24 iyul, s.3.

Beynəlxalq Qadınlar Təşkilatının ikinci konqresində İran qadınlar nümayəndəsi xanım Məryəm Firuzun nitqi. (1948). “Azərbaycan” qəz., № 111, 22 dekabr, s.1.

Darəndaşi. (1948). İran qadınlarının vəziyyəti haqqında. “Azərbaycan” qəz., № 43, 28 aprel, s.1.

Dövlətin xalqa olan etibarsızlığı. (1949). “Azərbaycan qəz., № 128, 19 fevral, s.1.

Əsgərzadə. (1948). Səhiyyə və əhalinin artımı. “Azərbaycan” qəz., № 30, 13 mart, s.1, 4.

Fəhmi, C. (1948). Kimi aldadırlar? “Azərbaycan” qəz., № 83, 15 sentyabr, s.4.

Firqəmizin Mərkəzi Komitəsi sədri yoldaş Badəganın məruzəsi. (1948). “Azərbaycan” qəz., № 109, 15 dekabr, s.4.

Gülgün, M. (1947). Anama. “Azərbaycan” qəz., № 5, 16 dekabr, s.3.

İbrahimi, F. (2018). Azərbaycan danışır... İftixarlı tariximizdən bir neçə parlaq səhifə (Azərbaycanın qədim tarixindən). Tərtibçi: S.Bayramzadə. Bakı: Elm və təhsil, 116 s..

İran qadınları öz azadlıqları uğrunda mübarizəni davam etdirirlər. (1949). “Azərbaycan” qəz., № 116, 8 yanvar, s.1.

İranı müstəmləkəyə çevirən “yeddi illik bərnamə”. (1949). “Azərbaycan qəz., № 116, 8 yanvar, s.3.

Kürdüstan tütünü. (1949). “Azərbaycan” qəz., № 119, 19 yanvar, s.4.

Oğruların vədələri. (1948). “Azərbaycan” qəz., № 83, 15 sentyabr, s.1.

Şəkibxan, F. (1948). İrtica əl-ayağa düşübdür. “Azərbaycan” qəz., № 93, 20 oktyabr, s.1, 3.

Taziyanə. (1948). “Azərbaycan” qəz., № 106 4 dekabr, s.1.

Vilayi, M. (1948). Dekabrın 5-i Sovet Sosialist Cümhuriyyətləri İttifaqı qanuni-əsasisi günü, ümumxalq bayramıdır! “Azərbaycan” qəz., № 106, 4 dekabr, s.3.